# UNUDULMAZ TƏHSİL FƏDAİSİ

**Hər bir insanın şəxsiyyəti onun ziyalılığı və mənəvi kamilliyi ilə ölçülür. Belə müdrik insanlardan biri də "Zəngi" liseyinin qurucusu və mərhum direktoru, "Şöhrət" ordenli, Əməkdar müəllim, fizika-riyaziyyat elmlər namizədi Bayram Mirabbas oğlu Heydərov idi. O, mahir pedaqoq, təhsil fədaisi, müəllimlər müəllimi, ədalətlilik və mərdlik rəmzi kimi tanınmışdır.**



Bayram Heydərov 1956-cı ildə Qərbi Azərbaycanın Zəngibasar rayonunun Dəmirçi kəndində müəllim ailəsində anadan olmuşdur. Onun müəllim ailəsində tərbiyə alması və ziyalı mühitində böyüməsi, onda elmə və maarifə xüsusi maraq oyatmışdır. İstər Bakı şəhərində təhsil aldığı illərdə, istərsə də vətəndən kənarda elmi fəaliyyətlə məşğul olduğu vaxtlarda gənc nəslin təhsili onu həmişə düşündürmüşdür.

Bayram müəllim 1992-ci ildə "Zəngi" liseyini yaratmaqla fəaliyyətinin İlk günlərindən liseydə yaradıcı təhsil mühitini formalaşdırmağa çalışmış və bu məqsədlə də tədris prosesinə AMEA-nın və müxtəlif ali məktəb müəllim və professorlarını dəvət etmişdir. Onun diqqət və qayğısı sayəsində bir qrup müəllim "İlin ən yaxşı müəllimi" müsabiqələrində yer almış və 4 nəfər "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür. Liseyin müəllimləri müxtəlif elmi-pedaqoji məqalələrlə respublika mətbuatında çıxış etmişlər. Qazanılmış uğurlar Bayram müəllimin əvəzsiz əməyi ilə gerçəkləşmişdir.

Bayram Heydərov müəllim və şagird kollektivinin elmi düşüncəsinin və elmi təfəkkürünün inkişafına böyük diqqət göstərmişdir. Buna misal olaraq, liseyin AMEA-nın Şamaxı Astrofizika Rəsədxanası ilə əməkdaşlığını xüsusi qeyd etmək lazımdır. Məktəbin şagirdləri dəfələrlə rəsədxanada keçirilən elmi tədbirlərin iştirakçısı olmuş və rəsədxananın alimləri dəfələrlə "Zəngi" liseyində elmi konfranslar keçirmişdir.

Yarandığı gündən "Zəngi" liseyində müəllimlərin elmi şurası və Şagird Elm-Yaradıcılıq Cəmiyyəti fəaliyyət göstərmiş və bir neçə ildən sonra ŞEYC Kiçik Akademiya formasını almışdır. Kiçik Akademiyanın üzvü olan şagirdlər müəlllimlərin rəhbərliyi altında kiçik elmi araşdırmalar aparmış və qazanılmış uğurlu nəticələri konfransa təqdim etmişlər. Bayram müəllimin təklifi və səyi nəticəsində həmin materiallar kitabça şəklində çap edilmişdir.

Bayram müəllim liseyin fəaliyyətində "Öyrən, inkişaf et, yarat" şüarına önəm verir, yaradıcı qabiliyyəti, elmi təxəyyülü və məntiqi yüksək qiymətləndirirdi. Onun bir arzusu da şagirdlərdə yaradıcı təfəkkürü inkişaf etdirmək idi. O, bu məqsədlə YTİ fənni (Yaradıcı Təfəkkürün İnkişafı) dərs planına salınaraq, ayrıca bir fənn kimi 5-7-ci siniflərdə bir neçə il tədris edilmişdir.

Bu gün "Zəngi" liseyinin sədası dünyanın müxtəlif ölkələrindən gəlir. Liseyin məzunları Avropa və Amerikanın, Rusiyanın elmi, iqtisadi və mədəni sahələrində uğurla fəaliyyət göstərirlər. Dünyanın hansı bölgəsində olursa-olsun, bu insanlar Bayram müəllimin əsasını qoyduğu təhsil ocağının ənənələrini şərəflə qoruyurlar. Bu ənənələrə təkcə elmilik deyil, azərbaycançılıq, mənəvi saflıq, vicdanlılıq və ədalətlilik prinsipi aiddir. Çünki "Zəngi" liseyi məhz bu amala xidmət etmişdir.

Bayram müəllimin "Zəng" liseyinin gələcəyi ilə bağlı çox arzuları var idi. O, liseydə yay və qış məktəblərinin yaradılmasına, kiçik rəsədxananın qurulmasına, idman zalı, stadion və akt zalının tikintisinə çalışırdı, lakin vaxtsız ölüm bu xəyalları gerçəkləşdirməyə imkan vermədi.

İllər keçəcək, nəsillər bir-birini əvəz edəcək, Bayram Heydərov heç vaxt unudulmayacaq və onu sevənlərin xatirəsində əbədi yaşayacaqdır.

**Nigar MƏMMƏDOVA,**
**"Zəngi" liseyinin təlim-tərbiyə işləri üzrə direktor müavini.**

**Respublika.- 2018.- 28 sentyabr.- S. 7.**